***Akademik Tarih ve Düşünce Dergisi*** ***Academic Journal of History and Idea***
***ISSN: 2148-2292***
***11(5) 2024***

***Derleme Makale | Review Article***
***Geliş tarihi |Received:18.04.2024***
***Kabul tarihi |Accepted:20.09.2024***
***Yayın tarihi |Published:25.10.2024***

**Ələkbər Ələkbərov**

***https://orcid.org/0009-0008-9220-8496***
*Doctor of philosophy in history, associate professor, Azerbaijan Military Institute named after Heydar Aliyev, Military Institute, Azerbaijan, baku_turan55@mail.ru*

***Atıf Künyesi | Citation Info***

Ələkbərov, Ə. (2024). Şərq – Qərb ticarət yolları və onun türk xalqları tarixində yeri (qədimdən Coğrafi kəşflərə qədər). *Akademik Tarih ve Düşünce Dergisi, 11* (5), 3365-3384.

# Şərq – Qərb ticarət yolları və onun türk xalqları tarixində yeri (qədimdən Coğrafi kəşflərə qədər)

***Xülasə***

*Bu məqalə mühüm məsələlərdən birinin - qədim və orta əsrlər İpək yolunun inkişaf tarixinin öyrənilməsi tarixinə və bu məsələdə Azərbaycanın əhəmiyyətinə həsr edilmişdir. Qədim dövrün demək olar ki, bütün ticarət yolları bu ticarət yollarının marşrutları boyunca yerləşən dövlətlər üçün təkcə mühüm gəlir mənbəyi deyildi. Onlar eyni zamanda dövlətlərarası və beynəlxalq əlaqələrin inkişafında mühüm rol oynadılar. Təsadüfi deyil ki, qədim və orta əsrlərin praktiki olaraq bütün beynəlxalq müqavilələrində onların təhlükəsizliyinin təmin edilməsini xüsusi olaraq nəzərdə tutan bənd var idi. Təəssüf ki, tarix çoxlu hallar bilir ki, plütokratiya öz eqoist məqsədləri və inhisarını bərqərar etmək naminə bu yollarda dövlətləri bir-birinə qarşı qoyur və nəticədə böyük beynəlxalq münaqişələrə səbəb olur. O dövrdə baş verən hadisələrin retrospektiv təhlili bu məsələdə mövcud olan müasir bir çox problemləri müəyyən etməyə imkan verəcək.*

***Açar sözlər**: İpək yolu, Türk dövlətləri, Çingiz xan*

BY NC
Creative Commons Licence

# East-West trade routes and their place in the history of Turkic peoples (from ancient times to geographical discoveries)

***Abstract***

*This article is devoted to one of the important topics - the history of the study of the history of the development of the Silk Road in the Ancient and Middle Ages and the importance of Azerbaijan in this regard. Almost all of the ancient trade routes were not only an important source of income for the states located on these trade routes. They also played an important role in the development of interstate and international relations. It is no coincidence that almost all international treaties in antiquity and the Middle Ages contained a clause specifically ensuring their security. Unfortunately, history knows many cases of plutocracy, which, in order to achieve their selfish goals and monopolies, pitted states against each other in these ways and led to major international conflicts. Retrospective analysis of the events that took place at that time will allow us to identify many modern problems in this regard.*

***Keywords:*** *Silk Road, Turkic states, Genghis Khan*

## Giriş

Azərbaycanın tarixən strateji əhəmiyyəti, onun təbii sərvətləri, xalqının etno-mədəni dəyərləri həmişə onu müxtəlif xalqların, imperiyaların və sivilizasiyaların diqqət mərkəzində saxlayırdı. Bu əhəmiyyəti daha da artıran yüz illər boyu bu ərazilərdən qaynaqlarda "İpək yolu" kimi daha çox tanınan böyük bir ticarət yolunun keçməsi idi. Lakin Asiyadan fərqli Avropada daha tez kapitalist münasibətlərinin inkişafı, onun tələbatlarının ödəməsi üçün yeni xammal və bazarların əldə edilməsi və ondan da irəli gələn XVI ə. başlayaraq ticarət yollarının əvvəlki məcrasını dəyişərək, okeanlara keçməsi, nəhayət dünya ticarətinin yaranması ilə İpək yolu tədricən öz əhəmiyyətini itirməyə başladı. Nəticədə Səmərqənd, Buxara, Fərqanə və Xivə kimi türk dünyasının mühüm ticarət, sənətkarlıq və mədəniyyət ocaqları sıradan çıxmağa başladı. XIX ə. başlayaraq tarixi İpək yolunun əsas hissəsi Rusiya imperiyası tərəfindən işğal edilir və XX əsrin 90-cı illərinin əvvəlinə kimi onun nəzarətində qalır. Lakin 1991-ci ildən başlayan "müstəqillik paradları" və ardınca 1998-ci ildə Bakı Bəyannaməsinin qəbulu ilə İpək yolunun bərpası məsələsi yenə də gündəmə gətirilir və bununla da Azərbaycanın və digər türk dövlətlərinin dünyanın qlobal siyasətində nə dərəcədə mühüm rol oynadığı bir daha təsdiqlənir. Məsələnin araşdırılması müasir problemləri anlamaq üçün onun tarixilik baxımından öyrənilməsini daha da *aktuallaşdırır*. Məsələnin öyrənilməsində *yenilik* Avropada uzun illər formalaşan tarixi yanaşmadan əl çəkmək və məsələnin öyrənilməsində yeni məntiqi baxışları təqdim ektməkdir. Türklərin ticarətlə məşğul olması və onu himayə etməsi Qərb və Rus tarixşünaslığında onların bir köçəri xalq olması haqqında

fikirlərini tam inkar edir, çünki ticarət bildiyimiz kimi, sənətkarlıqla qarşılıqlı əlaqədardır ki, bu da, təbii ki, şəhərsalma mədəniyyəti ilə bağlıdır.

**1.Əsas hissə**

Bilindiyi kimi İpək yolunun əsası e.ə. III əsrdə qoyulur. Lakin "Ipək yolu/Great Silk Way/Road" termini tarixi ədəbiyyatda ilk dəfə 1877 ildə alman tarixçisi K.Rihtqoferin "Çin" adlı kitabı nəşr edildikdən sonra istifadə olunmağa başladı. Bu karvan yolunun kapitalizmə qədər uzunluğu 7 min kilometr idi və o dünyanın ən uzun ticarət yolu sayılırdı. Arxeoloji qazıntılara əsasən e.ə. III minillikdə Pamir dağlarının ətəklərindən başlayaraq Mesopotamiya qədər "ləcivər yolu" mövcud idi, sonralar e.ə. II minillikdə onu "nefrit yolu" əvəz edir.

İpək yolunun salınması Hun imperatorluğunun Çin sülaləri olan Sin və Xanla böyük savaşlara səbəb olur ki, bu məqsədlə də hətta Sin Şi Xuandi e.ə. 214-cü ildə Böyük Çin səddinin inşasına başlayır. Lakin e.ə. 200-ci ildəki qələbəsindən sonra Hunlar həmin ərazidən keçən İpək yolunun əsas hissəsini nəzarətlərinə götürə bildilər. Yalnız e.ə. 36-cı ildə Teoman və Mete xaqanlarının yaratdıqları Hun imperatorluğu Çin hiyləgərliyi nəticəsində süqut etdikdən sonra, Xan sülaləsi yolu öz nəzarətinə ala bilir. İpək yolunun Avroasiyada əsas ticarət magistralı kimi funsional işləməsində çin məmuru Çjan Tyanın xidməti danılmazdır. Eramızın 138-ci ilində o hunlara qarşı mübarizədə müttəfiq tapmaq məqsədi ilə yüeçjilərin yanına diolomatik missiya ilə gedir. Hesab olunur ki, Orta Asiyaya, Soqdianaya səyahət edən ilk çinli məhz Çjan Tyan olub ( https://ru.wikipedia.org/). E.ə. II əsrdən başlayaraq Roma ilə Parfiya arasında İpək yolunun qərb istiqamətində, əsasən də Adurbadaqan və Xəzər sahilləri uğunda şiddətli müharibələr gedir (Beliko, 2017). İlk vaxtlar Parfiya uğur qazansada, e.ə. 30-cu illərində Mark Antonin hücumlarından sonra Roma müvəqqəti olaraq Adurbadaqanı nəzarətinə ala bilir.

Eramızın III əsrində bütövlüklə Avrasiya məkanı dörd regional imperiyaların nəzarətində idi. Bunlar – Roma (Aralıq dənizi), Parfiya (Yaxın Şərq), Kuşan (Hindistan, Əfqanıstan, Orta Asiya) və Çində Xan sülaləsi idi. Bu "imperiyalar kvarteti" həmin yol üzərində sabitlik yarada bilmişdi. Lakin romalılıların Çinlə ipək məsələsində vasitəsiz əlaqələr yaratmaq cəhtləri parfiyalılar tərəfindən qısqaclılıqla qarşılanırdı. Parfiyalılar romalılara öz ərazilərindən keçməyə imkan vermirdilər. Buna görə də romalıların Çinlə əlaqələr yaratmaq üçün ən əlverişli yol dəniz yolu idi. Məhz bu yolla ilk Roma imperatoru Mark Avrelinin nümayəndələri 166-cı ildə Çinə gələ bildilər. Lakin dəniz yolunun çox uzun olması onu perspektivsiz edirdi.

Bununla belə İpək yolunun digər əhəmiyyətini də qeyd olunmalıdır - əslində İpək yolu hardasa Roma-Parfiya münasibətlərində gərginliyin aradan götürülməsinə də xidmət edirdi, çunki müharibələr hər iki dövlətin tacirlərinə gəlir əldə etməsində böyük maneələr yaradırdı (Belikov, 2017). Eramızın ilk illərində Parfiya Adurbadaqan, Albaniya və Ərməniyyədə türk mənşəli Arşakiləri hakimiyyətə gətirməklə eramızın 224-cü ilinə kimi buralarda tam nüfuzunu bərpa edə bildi.

226-cı ildə Sasani dövlətinin yaranması ilə bu yollar uğrunda Roma ilə müharibənin yeni mərhələsi başlayır ki, o da 298-ci ildə Nisbin müqaviləsinə əsasən Ön Asiyadan keçən ticarət yollarının iki dövlət arasında bölüşdürülməsi ilə nəticələnir (https://ru.wikipedia.org/wiki). Ardınca 387-ci ildə Ərməniyyə ərazisi iki imperiya arasında bölünür və faktiki olaraq yenə də iki dövlət arasında müvəqqəti sülh bərqərar olur. IV əsrdə "imperiyalar kvarteti" sistemi tam dağılır – Romadan yalnız şərq hissəsi olan Bizans qalır. Kuşan və Xan imperiyaları bir biri ilə düşmənçilik edən xırda dövlətlərə parçalanır ki, bu qarşıdurma və tənəzzül eramızın 6-cı əsrinə qədər davam edir.

Cənubda bu hadisələr baş verdiyi bir dövrdə, şimalda Avropada bütövlüklə siyasi mənzərəni dəyişə bilən mühüm hadisələr cərəyan edirdi. Güman etmək olar ki, eramızın IV əsrində vaxtı ilə Çin basqınlarından Xəzərlə Aral dənizləri arasına köç edən Hunların başladıqları Xalqların böyük köçünün məqsədi bilavasitə həmin ticarət yolunun Orta Asiyadan Avropaya gedən qərb qolunun hissəsini ələ keçirmək idi. Təsadüfi deyil ki, Avropaya köç edən Hunlar əvvəl Krım yarımadasına və orada yerləşən əsas ticarət limanlarına hücum edib, Karpat dağlarını keçdikdən sonra, Avropada məhz ticarət yollarının kəsişdiyi Pannoniyada məskən saldılar. Qərbi Avropa ədəbiyyatında Hunları yalnız köçəri kimi təqdim olunmasına baxmayaraq, qaynaqların təhlili sübut edir ki, onların bu yürüşü "maldarların" sıradan bir köçü deyildi və o məqsədyönlü xarakter daşıyırdı (Ələkbərov, 2020; https://ednews.net/ru/news/interesting). Eyni vaxtda Mərkəzi Asiyada meydana gələn başqa türk, Ağ Hun, Eftalitlər dövlətinin Sasanilər üzərində 459 və 484-cü ildə parlaq qələbələrindən sonra (Zhdanova, 1970). türklər İranın şərq əyalətləri daxil olmaqla Xəzər dənizindən Qobi səhralarına kimi ərazilərdən keçən İpək yolunun cənub hissəsini əllərinə keçirə bilir. Bununla da ticarət yolunun hər iki istiqaməti türklərin nəzarətinə keçir.

552-ci ildə Ötükəndə Bumın xaqanın başçılığı ilə Göktürk dövlətinin yaranmasından sonra İpək yolu uğrunda mübarizənin yeni mərhələsi başladı. Onun varisləri Muğan və İstəmi xanların dövründə göytürklər çinliləri məğlub edərək Mərkəzi Asiyada İdil (Volqa) çayının sahilindən Ağ

Hun sərhədlərinə qədər torpaqları öz nəzarətinə aldılar. 567-ci ildə birləşmis sasani-göytürk qoşunları Ağ Hun qoşunlarını məğlub edib onun varlığına son qoydular. Lakin bu müttəfiqlik uzun çəkmədi, çünki İpək yolu ilə bağlı məsələ onların arasında ixtilafa səbəb oldu. Nəticədə 571-ci ildə bağlanan sasani-göytürk ticarət müqaviləsinə əsasən İpək yolunun bir hissəsi göytürklərə, digər hissəsi isə sasanilərə verildi.

VI əsrin son rübündə və VII əsrin əvvəlində Sasanilər Bizansdakı siyasi böhrandan istifadə edərək cənubdan keçən yollar uğrunda yunanlarla yenə müharibələrə başladılar. Hətta 626-cı ildə şimalda avarların köməyi ilə onlar Konstantinopolu mühasirəyə ala bildilər (Zhdanova, 1970). Bu mühasirə Sasanilərə bir uğur verməsə də müharibələr nəticəsində Sasanilər, qədimdən bu yollarda ticarəti əllərində saxlayan yəhudi tacirləri və sələmçilərinin köməyi ilə (Gumilev, 2022). Avropadan Asiya və Afrikaya gedən ticarət yollarının qərb hissəsini öz nəzarətlərinə aldılar (https://rusidea.org/25061101). VII ə. 30-cu illərində Qərbi Göytük dövlətinin süqutu ilə Xəzər və Qara dəniz aralığında yaranan Xəzər xaqanlığı Orta Asiyadan Dnepr çayına qədər Avropaya keçən yolun şimal qolunu öz nəzarətinə aldı.

630-cu ildə Müsəlman dövlətinin və ardınca Xilafətin yaranmasından sona 636-ci il Sasanilər üzərində Qadisiyyə və 637-ci il Bizansla Yərmuq döyüşlərində əldə edilən qələbələrdən sonra ərəblər Anadolunun şərqindən Orta Asiyaya qədər əraziləri o cümlədən İpək yolunun həmin hissəsini öz nəzarətinə ala bildilər (https://www.eparhia-saratov.ru). Artıq bu dövrdə daxili çəkişmələr nəticəsində Şərqi Göytürk dövləti tənəzzül dövrünü yaşayırdı. Bunlardan istifadə edən ərəblər 712-ci ildə ardıcıl olaraq Mavərəünnəhr və Hindistanın şimal-qərb torpaqlarını ələ keçirib Çin sərhədlərinə yaxınlaşır. Nəhayət, 751-ci ildə Əbu Müslimin başçılığı ilə birləşmiş türk-ərəb qoşunlarının Tan sülaləsinin qoşunları üzərində Talas qələbəsindən sonra (https://ru.wikipedia.org/wiki/). Çindən Anadoluya qədər olan İpək yolunun əsas hissəsi bütövlüklə müsəlmanların nəzarətinə keçdi. Lakin IX əsrdə Xilafətin parçlanması nəticəsində bu yollar uğrunda hərcmərcliyin yeni mərhələsi başlayır.

IX əsr ərəb coğrafiyaçısı İbn Xordadbehin yazdığına görə həmin vaxt Fransadan (!!! – müəllif) Çinə qədər uzanan bütün ticarət yəhudi "ər-razaniyyə" qul tacirlərinin əlində cəmləşmişdi. Avropada həmin yəhudi qul tacir-sələmçilər "rahdon"lar kimi tanınırdı. Məsələn, X əsr anonim fars qaynağı olan "Hüdud əl-'Aləm"in məlumatına görə həmin vaxt İranın şərqində Quzqan vilayətinin şimal-qərbində "Yahudhan" adlı bir məntəqə də var idi (Minorsky & Bartol'd, 1937). Bu dövrdə adı çəkilən quldar-rahdon karvanlarının Şərqi Avropadan qərbə doğru iki hərəkət

istiqaməti var idi. Onlardan birincisi istiqaməti şərqdən Avstriya Alpları və Akvileyadan dövrün ən böyük qul bazarı yerləşən Venesiyaya gedirdi. Məhz bu yolun üzərində XI-XII əə. qaynaqları 15 yaxın Judendorf (yəhudi kəndi) məntəqələri qeyd edir. O ki qaldı yəhudi qul tacirlərinin ikinci marşrutuna, o bir qədər şimaldan, Cənubi Bavariya və Regensburqdan Bergetsa oradan da Rona çayı vadisilə Arl və oradan da rahdonitlərin əsas mərkəzlərinə, Fransadakı Marsel şəhərinə doğru irəliləyirdi. Marseldə qulları gəmilərə yükləyib ərəb İspaniyasına aparırdılar və orada onlar bölüşdürülürdü. Qulların bir hissəsi Şimali Afrika, Antioxiya-Bağdad-İran yolu ilə daşınır, qalanları İspaniyada qalırdı (https://aquilaaquilonis.livejournal.com/15923.html). Digər Şərq xalqları kimi, avropalılar da yəhudilərin bu qul ticarətindən əziyyət çəkirdilər. Bəzi sənədlərdə yəhudilərə hətta Frank dövləti ərazisində qul alveri ilə məşğul olmalarına rəsmən icazə də verilmişdi ( https://ja-tora.com/da-online-post/firstjewsrus) Məsələn, Merzeburqlu Titmar (975-1018) yazır ki, hətta 1009-cu ildə yəhudi qul alverçilərinə bir neçə təhkimli kəndli ailələrin satmasında markqraf Qunselin suçlanmışdı.

Göründüyü kimi, tarixən yəhudilər bu cəhətdən Avropa ilə Şərq ölkələri arasında əsasən qul ticarətində vasitəçi rolunu icra edirdilər. Ənənəvi olaraq yəhudilərin qul alveri ilə yanaşı əsas gəlir mənbəyi sələmçilik idi (Ibn Khordadbeh, 1968; Ibn Khordabek, 1986; Gumilev, 1989). Sələmşiliklə əlaqədar yəhudi qanunlarında yazılır ki, "qardaşına gümüş, çörək və artımla gəlir gətirən heç nə vermə. Əcnəbidən faiz ala bilərsən, lakin qardaşından alma" [Dvarim /Təsniyyə/, 23:20-21] (https://blogs.7iskusstv.com).Yəhudi tacirlərinin sələmçiliyi və qul alveri ilə məşğul olması və bu cəhətdən özbaşınalıqları yerlərdə onlara qarşı böyük nifrətə və xalq üsyanlarına səbəb olmuşdur. Belə ki, Çində 879-cu Quançjouda və 881-ci ildə Mananda yəhudilərə qarşı böyük üsyanlar baş vermiş və nəticədə orada yerləşən yəhudi faktoriyalı dağıdılmış, özləri isə məhv edilmişdilər (Gumilev, 2022). VIII-IX əsrlərdı Avropada başlayan gümüş böhranı (Alekperov, 2011) yəhudilərin həmin siyasətin genişlənməsinə təkan verir. Qaynaqlardan aydın olur ki, məhz onların bu siyasətinin və qul alveri ilə məşğul olmasının qarşısını almaq üçün xürrəmi hərəkatı başlayır (Ələkbərov, 2015). Hətta həmin ticarətin qarşısını almaq məqsədi ilə Azərbaycan hakimi Yusif ibn Əbu Sac 912/913-cü illərdə Dərbənd səddini bərpa etdirir. Yusifi cəzalandırmaq məqsədi ilə isə 913-cü ildə yəhudilər rusları Xəzər sahillərinə basqın etməyə təhrik etdilər. Bu hadisələri işıqlandıran əl-Məsudi yazdığı kimi, Xəzər xaqanlığında hakimiyyəti ələ keçirən yəhudilərin təşəbbüsü ilə "rus"lar Gilan, Dəyləm, Təbəristan, Abəsqun torpaqlarına basqınlar törəditdilər və geri qayıtdıqda qənimətin bir hissəsini razılaşdıqları kimi yəhudilərə verdilər (Alekperov, 2011).

Maraqlısı da budur ki, bu qul alverində Abbasi xəlifələri də yəhudilərlə ortaq idilər və Yusifin bu siyasəti onların da maraqlarına zidd idi. Məhz bu siyasətin nəticəsi idi ki, Babək həbs olunanda, Səhl ibn Smbatı onu yəhudilərə cüzi pula satmasında suçlayır (Ələkbərov, 2015). Bizi maraqlandıran dövrdə (IX-XII əsrlər) ticarət yolunun şimal qolu Kiyev Rus dövlətinin ərazisindən Avropaya doğru keçirdi. Bulqar və Xəzər türkləri tərəfindən salınan Kiyev 790-cı ildən 882-ci ilə kimi yəhudi Xəzər xaqanlığının tabeliyində idi və 1113-cü ilə kimi orada iki yəhudi –xəzər (Козаре[1]) və Almaniya sələmçi icmaları (Жидове) (https://www.litres.ru/book/feliks-solomonovich/evrei-rossii-vremena-i-sobytiya-ist) mövcud idi. Qaynaqların müqayisəsi sübut edir ki, orada istifadə olunan "Жидове («жидове козарьстии»)" (http://ju.org.ua/pict_mod/pictures/190_item_file_) sözü adi sıravi yəhudilərə deyil, bilavasitə sələmçiliklə və qul alveri ilə məşğul olanlara şamil edilirdi. Hətta "jidovi"-lərin orada öz sinaqoqları da var idi (Gumilev, 2022). Slavyan qaynaqlarına görə "Xaqanlıq dövründə" yerli əhali xəzər yəhudilərinə hər evdən yəhudi pul vahidi olan "şekel"-lə (slavyan-rus salnaməsi «Повесть временных лет/Ötən illərin salnaməsi" onu "шеляг" (Razmeshcheno v 1377 postakh) kimi verir - müəllif) vergi ödəyirdilər. Yəhudilər həmin dövrdə Rus ərazisində ən çox yayıldığı yerlər qərbdə Volın, şimal-şərqdə Suzdal, cənubda Tmutarakan idi. Bu regionun mərkəzində Kiyev və Çerniqov yerləşirdi (Kulik, 2008). Yəhudiləri qul alveri və sələmçilik (Kulik, 2008). siyasətinin nəticəsi o oldu ki, əvvəl Kiyev 882-ci ildə onların tabeçiliyindən çixa bildi və ardınca 965-ci ildə Kiyev knyazı Svyatoslav Xəzər yəhudilərini İpək yolunun şimal hissəsini nəzarətə almaq üçün yəhudilərin 834-837-ci illər arasında inşa etdikləri Sarkel (rus salnamələrində "Belaya Veja" – müəllif) qalasını dağıtmalı oldu (Ələkbərov, 2020). Ardınca 1113-cü ildə Kiyevdə onlara qarşı güclü üsyan baş verdi - Кияни же разграбиша двор Путятин тысячьского, идоша на Жиды и разграбиша/kiyevlilər minbaşı Pyutyatanın evini dağıdıb, yəhudiləri üzərinə yürüş etdilər və /onları/ talan etdilər» (http://ju.org.ua/pict_mod/pictures/190_item_file_vladimirpet). Nəhayət 1124-cü ildə Kiyevdəki sinaqoqa yandırılır. Beləliklə də Vladimir Monomaxın əmri ilə başlayan üsyan nəticəsində yəhudilər Kiyevdən qovuldu və onların şəhərə bir daha buraxılması qadağan edildi (Gumilev, 2022; Kulik, 2008; https://www.litres.ru/book/feliks-solomonovich/evrei-rossii). 1038-cu ildə Nişapurda yaranan Səlcuqlu dövləti, onların 1055-ci ildə Bağdadı tutması ilə Asiya-

[1] Yəhudilərin Obadinin (790-820) başçılığı ilə 790-cı ildə Xəzər xaqanlığında hakimiyyətə gəlişi ilə yəhudilik dövlətin rəsmi dini elan edilir. Obadinin təşəbbüsü ilə xaqanlıq ərazisində çoxlu sinaqoq tikilmiş və Yaxın Şərqin müxtəlif ölkələrində bura çoxlu yəhudi alimləri dəvət edilmişdi. Bundan sonra qaynaqlardakı "xəzər/козаре» adı yəhudiliyi bildirən anlayışa çevrilir. (http://ju.org.ua/pict_mod/pictures/190_item_file_vladimirpetruhin.pdf).

Avropa və Afrika-Avropa xətti ilə keçdiyi ticarət yollarının kəsişməsində yerləşən Anadolunun sərhədlərinə çıxması ilə nəticələndi. 1071-ci il Malazgird qələbəsi (https://www.eparhia-) və ardınca Konyanı tutmaqla səlcuqlar Anadoludan Xorasana kimi əraziləri və orada Avaropadan Asiya və Afrika xətti üxrə keçən ticarət yollarını öz nəzarətləri altına aldılar.

Fatimilərin ismaili təriqətini qəbul etmişdi. Qaynaqlardan bəllidir ki, yəhudilər qədimdən Misirə köç etmişdilər. Maraqlı faktlardan biri də odur ki, Makedoniyalı İskəndər Aralıq dənizi sahilində böyük ticarət mərkəzi kimi İskəndəriyyə şəhərinin inşasına başladıqda, orada böyük bir yəhudi icması yerləşdirir (Kautskiy, 1990). Daha da maraqlısı da odur ki, haşişilər də yəhudi terrorçuları kimi (sikariyalar – müəllif) qətl zamanı örtük altından "sica/sika" (Kautskiy, 1990). adlı əyri xəncərlərdən istifadə edirdilər.

Həsən əs-Sabbah 1090-cı ildə Qəzvin yaxınlığında İran yaylası və Xəzər dənizinin cənubu arasında yerləşən Ələmut qalasını ələ keçirir və bununla da qaladan İpək yolunun dar keçidinə nəzarət etmək imkanını əldə edir. Təriqətin məhz Xaçlı yürüşləri zamanı yaranması və Həsən əs Sabbaha "şeyx" adının xaçlılar tərəfindən verilməsi (https://overclockers.ru/blog/) konservacii-posle- onu deməyə əsas verir ki, bu hadisələrin arxasında iki əsas qüvvə dayanmışdi – Avropa xaçlıları, onları maliyyələşdirən və vaxtı ilə bu yollara nəzarət edən yəhudi qul tacir-sələmçiləri (https://aquilaaquilonis.livejournal.com/15923.html) və onlarla bağlı olan fatimilər. Təbii ki, onların bu siyasəti Səlcuqların qərbə doğru yürüşlərindən yayındırmaq və təcarət yollarını ələ keçirmək məqsədini güdürdü. 1099-cu ildə Qüdsün mühasirəsi zamanı məhz Venesiya və Genuya şəhərlərinin iştirakı və xaçlı ordusununu təchizatla təmin edilməsi bir daha burada katolik və yəhudi kapitallarının iştirakından xəbər verir (https://www.kommersant.ru/doc/) Bu hadisələr isə ümumiyyətlə tarixdə "xaçlı yürüşləri" kimi tanınan baş verənlərin yenidən araşdırılması zərurətini ortaya qoyur. Ona "xaçlı" adının verilməsi məsələnin yalnız üst qatıdır. Aydındır ki, xaçlı yürüşlərin təşkilatçısı Roma kilsəsi idi (https://www.eparhia-saratov.ru). Lakin yürüşün maliyyə hesabını yəhudilər tərəfindən təmin etməsi şübhəsiz və inkar edilməzdir (https://www.partner-inform.de/partner/detail) pohodov?lang=ru çünki, *birincisi*, feodal pərakəndəliyi dövründə, Avropada "mayorat" varislik qaydasının hökmranlığı şəraitində, yəni feodalın uşaqlarının sayı nəzərə alınmadan mülkiyyətin böyük oğluna keçməsi və bununla da ticarət yollarında mirassız qalan digər övladların quldurluğunun tüğyan etməsindən ən çox ziyan çəkən məhz yəhudi, əsasən qul tacirləri olurdular. Yəhudilərin marağında idi ki, həmin başıbozuqlar Avropadan uzaqlaşdırılsın və həmin yollarda əmin-amanlıq yaransın. Belə bir şəraitdə xaçlı yürüşləri ərəfəsində yəhudilər

ticarətdən daha çox sələmçiliyə üstünlük verdilər (https://blogs.7iskusstv.com/) Hətta bu vəziyyətdə Avropanın ayrı-ayrı şəhərlərində yəhudilərə sələmçiliklə məşğul olmağa rəsmi icazə də verilirdi. Məsələn, Almaniyan Şpeyer şəhərinin yepiskopu hələ 1084-cü ildə yəhudi icmasını dəvət edib, onlara ticarət və pul mübadiləsi ilə bağlı icazə verir ki, onların imtiyazları da mətninə xüsusi olaraq qeyd etdirir: ”Mən onlara gümüş və qızıl mümadiləsi ilə məşğul olmağa, eyni ilə *lazım bildiklərinin alıb-satılmasına icazə verdim ... Bu icazə bütün şəhərə şamil edilir*”. Beləliklə də tədricən Avropada “yəhudi” və “sələmçi” sözləri sinonim oldu və bundan da irəli gələrək yəhudi icması “sələmçi knesset” kimi qəbul edildi (https://blogs.7iskusstv.com). Amma hadisələrin gedişatı sübut edir ki, xristianlar da yəhudilərin bu hiyləsindən xəbərdar idi ki, nəticədə Qüdsdə müsəlmanlarla yanaşı yəhudilərə də zülm edildi. 1187-ci ildə Səlahəddin Eyyubinin Qüdsü, müsəlmanların dini mərkəzlərindən biri kimi xaçlılardan və onları maliyələşdirən yəhudilərdən geri alması isə iki dini təriqət nümayındələrinin uzun müddət bu siyasətlərindən əl çəkmələrinə səbəb oldu. Bununla belə, xaçlı yürüşləri nəticəsində bu “ittifaq” dağıldı və quru yollar yəhudilərin inhisarlığında qaldığı halda, Aralıq dənizində ticarət üstünlüyü katoliklərin əlinə keçdi (Kamalov, 2007). Roma kilsəsi ilə yəhudilər arasında başlanan bu yeni rəqabət və ixtilaf isə sonralar həm Avropada, həm də müsəlman dövlətlərin qarşılıqlı münasibətlərinə öz mənfi təsirini çox qabarıq şəkildə göstərə bildi.

1157-ci ilə Səlcuq imperiyasının süqutundan sonra İpək yolu uğrunda mübarizəyə bəzən aralarında nisbi sakitlik yaransa da Eldənizlərlə yanaşı Eyyubilər və Xarəzmşahlar qoşulur. Bu mübarizə faktiki 1206-ci ildə Çingiz xan tərəfindən Monqol dövlətinin yaranmasına qədər davam edir. 1211-ci il monqolların Çinə uğursuz yürüşündən sonra Cingiz 1215-ci ildə Pekin daxil olmaqla Şimali Çini işğal edir və ardınca Xarəzm sərhədlərinə kimi İpək yolunu öz nəzarətinə ala bilir.

1218-ci ildə İpək yolunun üzərində yerləşən və Xarəzmşahların nəzarətində olan Otrar qalasında Çingiz xanın tacirlərinin qarət olmasını bəhanə edən monqollar, 1219-cu ildə oğuz-bekdili Xarəzmşahlar dövlətinin varlığına son qoyur və Çinin şimalından Xəzərə qədər ticarət yolunu tutur. 1220-cu ildə Çingizin əmri ilə sərkərdələri Subutay və Cəbə İran və Azərbaycana yürüş edirlər. Tarixi ədəbiyyatda bu hadisələr Çingizə xəyanət edən qıpçaqların cəzalandırılması və onların yerləşməsinin öyrənilməsi kimi şərh edilir (Kamalov, 2007). Əslində bu həqiqət məsələnin üst tərəfi idi, çünki sonrakı hadisələr monqolların Şərqlə Qərb arasında (“sonuncu dənizə qədər” ideyası – müəllif) olan ticarət yollarının nəzarətlərinə keçməsi uğrunda başladıqları

mübarizəni təsdiqləyir və həmin yürüşlər iki istiqamətdə həyata keçirilirdi (Kamalov, 2007). – Monqolustan-Xarəzm-İdil (Volqa) boyu /Baltik dənizinə doğru/-Kiyev-Avropa və Monqolustan-İran-Azərbaycan-Anadolu-Avropa. Bu məqsədlə 1236-cı ildə Cingizin nəvəsi Batı xan “qərb” yürüşünə başlayaraq 1236-1240-cı illər ərzində İdildən Karpat dağlarına qərər Rus və Dəşt-i Qıçaq ərazilərini tutur. Məhz bu hadisələrdən sonra Qərbi Avropada Karpat dağları “Tatrı”, yəni “tatar dağları” adlandırıldılar. 1243-cü ildə monqollar Kösadağ döyüşündə səlcuqları məğlub edərək Rum Səlcuqlu sultanlığını asılı vəziyyətə saldı (Bosvort, 1971). Göründüyü kimi monqollar qısa müddətə Çindən Anadoluya kimi İpək yolunun əsas hissəsini tuta bildilər. Lakin bu da onlara “sonuncu dənizə qədər” ideyasının tam reallaşmasına imkan vermədi. Burada monqollar kayyı boyunun bəyləri olan Ərtuğrul və ardındca Osaman qazilərin və digər tükmən boylarının güclü müqaviməti ilə rastlaşaraq, irəliləyə bilmədilər.

Çingizin vəsiyyəti ilə imperiyanın dörd ulusa parçalanması, Azərbaycanın, Anadolunun və İranın Qızıl Orda ulusuna daxil edilməsi və, nəhayət, Menqü xanın tapşırığı ilə Hülaku xan tərəfindən Təbriz paytaxt olmaqla Elxanilər dövlətinin yaranması ilə İpək yolu uğrunda mübarizəni yeni müstəviyə keçir. Bu müharibələr isə dərhal Hülaku dövlətinin yaranması ilə başlayır. Həmin vaxt Roma papası Misir məmlüklərinə “xristian Müqəddəs torpaqlarını” tutduqları üçün, onların üzərinə ticarət embarqosu qoydu. Papanın bu addımı ilə məmlüklərin qul alveri ilə bağlı Avropa və Qıpçaq ticarət yolu bağlanırdı. Bununla da bu ticarət yolları uğunda mübarizədə iki blok yaranır – Hülakülər-Bizans-Avropa bir tərəfdən, digər tərəfdən – Qızıl Orda-Məmlüklər. Sonralar katolik Venesiya Respublikası Qızıl Ordaya Genuya isə Elxanilərə qoşulur (Kamalov, 2007). 1256-cı ildə Hülaku haşişilərin Ələmut qalasını alaraq İpək yolu üzərində katolik və yəhudilərdən olan təhlükə mənbələrindən birini aradan götürə bildi. 1258-ci ildə Elxanilər Bağdadı tuturlar. Lakin elxanilərin Avropadan Afrikaya gedən yolunu məmlüklərdən almaq cəhdi, 1260-cı ildə onların Ayn Cəlut döyüşündə sultan Beybarsa məğlubiyyəti ilə nəticələndi.

1263-ci ildə Hülakülərin Qızıl Orda xanları ilə başlayan müharibələri isə elxanilərə həmin yolların tam nəzarətləri altına alınmasına imkan vermədi. Əslində bu müharibədə Qızıl Ordanın əsas məqsədi həm şimaldan, həm də ki, cənubdan keçən ticarət yoluna nəzarəti götürmək idi. 1357-ci ildə Qızıl Orda xanı Canı bəy Təbrizi tutmaqla Hülakulərin varlığına son qoydu. Elxanilərin süqutu bu mübarizəni daha da qızışdırdı. 1357-ci ildə Qızıl Ordada Canı bəyə qarşı üsyan başlayanda, o geri dönərək, Təbrizdə yerinə oğlu Berdi bəyi qoyur. Lakin tezliklə Berdi bəy Təbrizi tərk edərək, təcili Qızıl Ordaya qayıdır və bilavasitə atasının qətlində iştirak edir (Kamalov, 2007).

